# "MÖHTƏŞƏM ZƏFƏRİN NİŞANƏSİ" ŞƏKİDƏ



**Qarabağ Şikəstəsi:**
**"Şəki, Şirvan, Qarabağ..."**
**Görən kimin bəstəsi?!**
**"Şəki, Şirvan, Qarabağ..."**

**Tarixə bir baxışdı,**
**Düşüncəmə naxışdı,**
**Birliyə çağırışdı:**
**"Şəki, Şirvan, Qarabağ..."**

**Bəxtiyar nəğməsidi,**
**Sabir zəlzələsidi,**
**Üzeyir nəfəsidi,**
**"Şəki, Şirvan, Qarabağ..."**

**Sacayaqdı - bu doğru,**
**Dostluq - məsləki, yolu,**
**Bir atanın üç oğlu,**
**"Şəki, Şirvan, Qarabağ..."**
**Sevindik Nəsiboğlu**

*08.03.2015*

Bu yaxınlarda Şəki Şəhər İcra Hakimiyyətinin və Şəki Regional Mədəniyyət İdarəsi şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) birgə təşkilatçılığı ilə Şəki şəhərində yerləşənHeydər Əliyev Mərkəzində müəllifi olduğum, sayca 5-ci olan "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabımın təntənəli surətdə təqdimatı keçirildi. Tədbirdə Şəkinin, həmçinin şimal bölgəsinin dörd bir tərəfindən kitabın işığına yığışan hörmətli alim və ziyalılar, kitabxana işçiləri, yeniyetmələr və gənclər, eləcə də həmin bölgədən olanşəhid ailələri iştirak edirdilər.

Tədbirin aparıcısı olaraq Azərbaycan Yazıçılar Birliyinin Şəki bölməsinin sədri, çox hörmətli mütəfəkkir ziyalımız Vaqif Aslan tədbiri giriş sözü ilə açdı və vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Vaqif müəllim çıxışında Vətən müharibəsi zamanı, eləcə də post-müharibə dövründə Azərbaycan ədəbiyyatından, yazıçı və şairlərin genişmiqyaslı fəaliyyətindən danışdı. O, dörd yüzdən çox vətən fədailəri-şəhidimiz barədə vətənpərvər yazılar, məqalələr, şeirlər yer almış təqdimatı keçirilən kitab haqqında ətraflı məlumat verdi.

Sonra isə Şəki Şəhər İcra Hakimiyyətinin böyük məsləhətçisi, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Anar Məmmədov böyük və dərin mənalı çıxışında tərcümeyi-halımı tədbir iştirakçılarının diqqətinə çatdırdı və "Möhtəşəm Zəfərin nişanəsi"adlı kitabım haqqında da ətraflı məlumat verdi. O, çıxışında bildirdi ki, 700-dən çox səhifəsi olan "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabın əsas mövzusunu Birinci Qarabağ müharibəsi, atəşkəs dövrü, 2016-cı ilin Aprel və 2020-ci ilin Tovuz döyüşləri, nəhayət, 44 günlük Vətən müharibəsi zamanı canlarını qurban vermiş şəhidlərimizin qısa, lakin olduqca mənalı həyat və döyüş yollarından bəhs edən publisistik məqalələr, şeirlər, anım tədbirlərindəki çıxışlar, eləcə də 1992-2020-ci illərdə Vətən uğrunda canlarını fəda etmiş qəhrəman Azərbaycan oğulları haqqında müəllif tərəfindən yaradılan 365 şəhidimiz haqqında Vikipediya səhifələri, ümumilikdə, 76 şəhid, 2 qazi və 2 müharibə iştirakçısı haqqında məqalə və şeir, həmçinin azad edilən ərazilərimiz və vətənpərvərlik mövzusunda 40-dək şeir yer almışdır.

Anar müəllim kitabın yeniyetmələr və gənclər arasında vətənpərvərliyin aşılanması, vətən uğrunda canlarından keçən şəhidlərimizin və sağlamlığından keçən qazilərimizin tanınması istiqamətində əhəmiyyətli olduğunu bildirmişdir. O, çıxışınınsonunda mənə uğurlar arzu etdi və gurultulu alqışların müşayiəti ilə çıxışını başa vurdu.

Onu da qeyd etməliyəm ki, təşkilatçı olaraq Şəki Mərkəzi Kitabxanasının direktoru Kəmalə xanım İsmayılova tədbirdən əvvəl də mənimlə çox maraqlandı və xüsusi diqqət göstərdi. Kəmalə xanım tədbirdə çıxış etdi və gələcək fəaliyyətimdə mənə xoş arzu-diləklərini səmimiyyətlə çatdırdı.

Kitabxananın əməkdaşı Dilbər xanım Yaqubova isə çıxışı zamanı əvvəlcə məni və tədbirdə iştirak edib-etməməsindən asılı olmayaraq bütün mətbuat işçilərini 22 iyul-Milli Mətbuat Günü münasibəti ilə təbrik etdi. O, 4 gün sonra 14 yaşımı qeyd edəcəyimi də vurğulayaraq məni bu münasibətlə ilk təbrik edənlərdən birincisi oldu. Çıxışında isə təqdimatı keçirilən kitabın məzmununu və əhəmiyyətini vurğulayaraq kitabda yer almış "Azərbaycan əsgəri"adlı şeirimi çox gözəl intonasiya ilə söylədi və tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

9 noyabr 2020-ci ildə Şuşa qalasının azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşməklə son damla qanını tökərək şəhidliyə ucalan Qax rayon Zərnə kənd sakini Hacıəhməd Həsən oğlu Hacıəhmədlinin anası İlkinbar ana da çıxışa hazırlanarkən Vaqif müəllim şəhid analarından söz açaraq hamımızın ürəyindən olan belə bir ifadə işlətdi: "Ana bəşəriyyətin anasıdır". Doğrudan da belədir, ələlxüsus da şəhid anası ola...

İlkinbar ana çıxışında qəhrəman oğlu Hacıəhməd qardaşımın tərcümeyi-halını və döyüş yolunu bir daha tədbir iştirakçılarının diqqətinə çatdırdı, tədbirin təşkilatçılarına və kitabın müəllifi kimi mənə təşəkkürünü bildirdi. Biz hamımız alqışlarımızla təşəkkürə ehtiyac olmadığını bildirərək ona minnətdarlıq etdik.



Şəhidimizin anasının çıxışından sonra jurnalist Çingiz Nağıyev (Ənvəroğlu) tribunaya dəvət aldı. O, çıxışında təqdimatı keçirilən kitabı az vaxt əvvəl əldə etdiyindən vaxt məhdud olduğu üçün yalnız vərəqləyib bir neçə səhifəsini, xüsusilə, bir neçə məqalə və şeirləri oxuduğunu, kitabdakı şeirləri və məqalələri bəyəndiyini, gənc yazarın bu məqalələri sanki 35-40 yaşlarında bir insanın təfəkkürü ilə yazdığını qeyd etdi. Sonra Çingiz müəllim mənə yaradıcılıq uğurları arzuladı və sonda mənə təbiətlə bağlı gözəl bir əl işi olan öz hədiyyəsini təqdim etdi.

Çingiz müəllimin dəyərli çıxışından sonra anasının böyüyüb boya-başa çatdığı Ağdamı nişğaldan azad olunması uğrunda gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalan, anasının və millətinin alnından qaçqın damğasını silmək yolunda canını fəda edən Zaqatala rayon Qımır kənd sakini şəhid Musa Nüsrət oğlu Nuhiyevin anası Laləzar ana çox dərin mənalı çıxış etdi. Şəhid analarının bu məğrur, lakin həmdə ağrılı çıxışlarından mənimlə bərabər qürur duyan və eyni zamanda qəhərlənən iştirakçılar çox idi. Laləzar ana oğlunun qəhrəmanlığından söz açdı və kitaba görə mənə təşəkkürünü bildirdi. Qeyd edim ki, təqdimatı keçirilən kitabımda hər iki şəhidimiz haqqında hazırladığım Vikipediya səhifəsi yer almışdır. Ən əsası odur ki, mən şəhidlərimizə şeirlər və məqalələr yazaraq, şəhidlərimiz haqqında Vikipediya səhifələri hazırlayaraqşəhidlərimizin əziz ruhu qarşısında azacıq da olsa, borcumu yerinə yetirməyimdən təsəlli tapıram. Ən ali təşəkkür ömrünü şam kimi əridən şəhidlərimizə və onları vətən üçün vətənpərvər, vətənsevər böyüdən valideynlərinə düşür.







Filologiya elmləri doktoru, professor Asif Rüstəmli çıxışında kitabın necə araya-ərsəyə gəlməsindən danışdı və bildirdi ki, kitabdakı məqalə və şeirlər redaksiya heyətinin üzvü və ən gənc ictimai müxbiri olduğum "Kredo" qəzetində müntəzəm olaraq hissə-hissə dərc edilərək oxuculara və şəhid ailələrinə çatdırılmışdır. Hazırda da bu fəaliyyət davam etməkdədir. O, kitabla bağlı danışmaqla bərabər həm də fəaliyyətimlə əlaqədar qısa məlumat verdi. Hörmətli Asif müəllim bu gün Milli Mətbuatımızın 147-ci ildönümü olduğunu, mənim "Kredo" qəzetinin redaksiya heyətinin üzvü və ən gənc ictimai müxbiri olduğumu,həmçinin 2 ildir ki, AJB-in üzvü olduğumu tədbir iştirakçılarının diqqətinə çatdırdı. Çıxışının sonunda o, tədbir təşkilatçılarına təşəkkürünü bildirdi.

Sonra isə AMEA Şəki Regional Mərkəzinin "Folklorşünaslıq və el sənətləri" şöbəsinin rəhbəri İradə xanım Yusifli çıxışında ailəmizi illər əvvəldən yaxından tanıdığını, bacımın və mənim elə onların gözünün önündə yavaş-yavaş böyüdüyümüzü, ailələrimiz arasında dərin, möhkəm tellərlə bağlanmış səmimi, mehriban, qaynar münasibətin olduğunu bildirərək mövzuya həm də ailə prizmasından yanaşdı. Vaqif müəllim İradə xanımın çıxışını yüksək qiymətləndirərək dostluq, ailə münasibətlərinin dövrümüz, gənclərimiz, vətənpərvərlik üçün nə qədər mühüm rola malik olduğunu xüsusi vurğuladı.

Tədbirdə mənə xüsusilə xoş gələn, yaddaşımda silinməz iz buraxan, qəlbimi fərəh hissi ilə dolduran anlardan biri dəzamanının ziyalısı, əhatəsində olanlar arasında tanınmış şəxsin-Əhməd Yusifovun və ümumilikdə, Şəki rayonunun, eləcə də Baş Layski (Layiqli) kəndinin sevimli övladı, mənim üçün əziz əmi olmuş Abdulla müəllim Yusifovun və sovetlər dövründə öz xeyirxahlığı ilə Vətənimizin həmin bölgəsində "Mamay Məmməd" adını qazanmış çox hörmətli bir şəxsiyyətin ailəsində dünyaya göz açmış, ailəmizin əziziEldar müəllimCabbarovun iştirak etməsi idi. Abdulla əmi atamla tələbəlik illərini birlikdə mətin addımlarla addımlamış, sonradan uzun müddət birlikdə hüquq-mühafizə orqanlarında ali, müqəddəs qanunlarımızın keşiyində bərabər, çiyinçiyinə dayanmışdır.Onu da qeyd edim ki, hələ illər əvvəl Abdulla əmimin atası Əhməd Yusifovun yubileyinə və onun xatirəsinə həsr olunmuş kitabın təqdimatında ona həsr etdiyim "Əhməd baba" adlı şeirimi səsləndirmişdim. Həmin şeirim sayca 2-ci kitabım olan "Hərdən uçmaq istəyirəm" adlı şeir kitabımda yer almışdır.

Eldar əmim də bir zamanlar hüquq-mühafizə orqanlarında atamla birlikdə çalışmışdır, hazırda prokurorluq orqanlarının veteranı, təqaüdçüdür.Onlar tədbirdə nitq söyləməsələr də könüllərdən könüllərə yol göründüyü üçün mən onların qəlblərindən keçənləri çox gözəl hiss edirdim. Bilirdim ki, xoş söz demək üçün onların qəlbi bahar vaxtı öz məcrasından çıxan Kiş çayına bənzəyir.

***(Davamı var)***

***Sevindik NƏSİBOĞLU***
***8-ci sinif şagirdi,***
***şair-publisist,***
***AJB-nin üzvü***